# Azərbaycan - Türkiyə - Pakistan ittifaqı



*Azərbaycan, Türkiyə və Pakistanın qalib və güclü ölkələr olaraq ayaqda durmaları həmin ölkələrə də stimul verir*

***Noyabrın 8-də Azərbaycan Odusunun düşmən üzərində Zəfərinin 5-ci ildönümünə həsr olunmuş hərbi paradda qardaş ölkələr Türkiyə və Pakistan liderlərinin, eləcə də bu ölkələrin silahlı qüvvələrinin şəxsi heyətinin iştirakı dünya tərəfindən formalaşmaqda olan, mənəvi bağlarla gücləndirilmiş hərbi ittifaqın təcəssümü kimi qiymətləndirilib. Bir Azərbaycan vətəndaşı olaraq, bunu inkar da etmirik: hərbi müqavilə olmasa belə, bu üç dost və qardaş ölkə həm şad, həm də ağrılı günlərdə daima birlikdədir.***

## Təhlil

### Dünyaya çağırış

**İndi sual yaranır: Azərbaycan, Türkiyə və Pakistanın hərbi birliyi nəyə hesablanıb və ümumiyyətlə, hər hansı güc balansı formalaşdırmaq imkanındadırmı?**

Öncə qeyd edək ki, bu ölkələrin hər üçü son illər aktiv hərbi meydanda böyük Zəfərə imza atıb. Azərbaycan 30 ildən artıq sürən, Rusiya, İran və Qərb tərəfindən açıq-aşkar dəstəklənən Ermənistanın işğalına son qoyaraq torpaqlarını düşmən tapdağından azad etdi. Türkiyə isə Liviyada, Somali və Suriyada vətəndaş müharibələrini dayandırdı, bu ölkələrin parçalanmasının qarşının alınmasında, İraqın şimalında apardığı Qərb və Rusiya tərəfindən dəstəklənən terrorun kökünün kəsilməsində müqayisəolunmaz uğur qazandı. Pakistanın da bir neçə gün davam edən hərbi toqquşmaların müharibəyə çevilməsinə imkan vermədən ildırım sürətilə Hindistan üzərində qələbə çalmasını dünya birliyi böyük çaşqınlıqla qarşılayıb. Onu da diqqətdən qaçırmayaq ki, bütün qələbələrdə bu üç qardaş ölkənin ən azı mənəvi baxımdan birgə rolu danılmazdır.

Əslində, üç qardaş ölkə liderlərinin Bakıda keçilən paradda bir araya gəlməsi heç də kimlərəsə gözdağı vermək məqsədi güdmür. Çünki nə Azərbaycanın, nə də Türkiyə və Pakistanın heç vaxt hansısa dövlətlə güc diliylə danışma və torpaq iddiası irəli sürmə kimi ənənəsi yoxdur. İndiki ittifaq sadəcə insanların təhlükəsizliyini, iqtisadi-ticari inkişafı hədəfləyir. Təbii ki, güc dili ilə danışanlara əzələ göstərmək də normaldır.

### Böyük güc

**Əzələ göstərməkdən söz düşmüşkən, Azərbaycan, Türkiyə və Pakistanın malik olduğu hərbi qüvvələrin gücünə ötəri nəzər salaq:**

Azərbaycan Ordusu 125 min nəfərlik şəxsi heyətdən ibarətdir və lazım olduğu an daha 100 min nəfər odrduya cəlb edilə bilər. Ordunun envanterində 350-dək tank, mindən çox zirehli döyüş maşını, 100-dən artıq döyüş təyyarəsi, təxminən bir o qədər helikopter, çox sayda müasir SİHA və İHA-lar mövcuddur.

Dünyaın ən güclü 9-cu ordusu olan Türkiyə Silahlı Qüvvələri 356 min aktiv, 379 min nəfər ehtiyyat qüvvələrdən ibarətdir. Türk ordusunun envanterində 2300 tank, 113 min zirehli döyüş maşını, 200-dən artıq hərbi gəmi, ümumilikdə 1100-dək təyyarə və helikopter, üstəlik, minlərlə ən müasir SİHA və İHA-lar mövcuddur. Pakistan Ordusu isə 660 min aktiv əsgərdən, 550 minlik ehtiyat heyət və 291 min nəfərdən çox hərbiləşdirilmiş əlavə qüvvədən ibarətdir ki, bu da hərbi heyətin ümumi sayını 1,5 milyondan çox edir. Bu rəqəmlərlə Pakistan dünyada yeddinci ən böyük aktiv hərbi qüvvəyə malikdir.

Pakistan Ordusunun envanterində 2700 tank, 10 min civarında zirehli döyüş maşını, təxminən 1400 döyüş təyyarəsi, minlərlə ən müasir SİHA və İHA-ları mövcuddur. Həm də Pakistanın arsenalında, təxminən, 170 nüvə başlığı var və mövcud istehsal gücü ilə bu rəqəmin yaxın illərdə 200-ə çatacağı proqnozlaşdırılır. Amma yenə təkrarlayıram: bu qüvvələr heç bir ölkəyə təhlükə deyil, əksinə, sülh və sabitlik təminatı verir.

### İqtisadi rifah

**Bu ilin may ayında reallaşan Laçın Hava Limanının açılışında da Azərbaycan Prezidenti Türkiyə və Pakistan liderləri ilə bərabər iştirak etmişdi və orada da dünyaya sülh mesajları göndərilmişdi.** Son zamanlar Pakistanın Azərbaycan-Türkiyə qardaş ailəsinə daha da yaxınlaşması göstərir ki, İslamabad artıq illərini Hindistanla siyasi-hərbi çəkişmələrlərdə itirmək deyil, qlobal siyasi-iqtisadi-ticari layihələrdə daha böyük rol oynamaq, ölkənin tərəqqisini sürətləndirmək və bununla da, Avrasiyada formalaşmaqda olan Şərq-Qərb, Şimal-Cənub qütblərinə uzanan nəqliyyat, enerji və ticarət yolları layihələrinin fəal üzvü olmağa çalışır. O cümlədən, Azərbaycan və Türkiyənin ciddi səyləri nəticəsində Mərkəzi Asiya və Qafqazı Türkiyə üzərindən Avropaya bağlayan Orta Dəhlizə qoşulmaq niyyətini üzə çıxarır.

Yeri gəlmişkən, bu ilin ilk yarısında Macarıstanda keçirilən Türk dövlətləri zirvəsində 71 bəndlik sənəd qəbul olunub ki, orada Əfqanıstana dəstək məsələsində xüsusi yer ayrılıb. Bu təsadüfi deyil. Çünki gələcəkdə Orta Dəhlizin yeni seqmenti yaradılacaq. Bu, Pakistanın məhz Əfqanıstan üzərindən Orta Asiyaya, oradan da Azərbaycan və Türkiyə üzərindən Avropaya, eləcə də əksinə, qarşı tərəfin Pakistan limanları vasitəsilə Hind okeanına çıxış yolunu açmağı nəzərdə tutur.

Sonda qeyd edək ki, üç qardaş dövlətin ittifaqı nəticə etibarilə Azərbaycanın hərbi-siyasi müstəvidə mövqelərini gücləndirməklə yanaşı, həm də Balkanlardan Himalaya qədər olan geniş coğrafiyada təhlükəsizliyə təminat verəcək, bu regionda çaxnaşma salmaq və ya özünə qüvvə formalaşdırmaq istəyənlərin qarşısında maneə yaradacaq. Kimsə sual verə bilər ki, bu üç dövlətin belə bir təhlükəsizlik planını reallaşdırmağa gücü çatarcaqmı, cavabı bəli! Söhbət 350 milyonluq əhalinin yaşadığı böyük hərbi gücdən və toplam 2 trilyon dollarlıq illik milli hasilata malik iqtisadiyyatdan (Türkiyə 1,55 trilyon dollar, Pakistan 350 milyard dollar və Azərbaycan 75 milyard dollar) gedir. 2024-cü il statistikasına baxsaq, il ərzində Türkiyə 262 milyard dollarlıq ixrac, 344 milyard dollarlıq idxal, Pakistan 33 milyard dollarlıq ixrac, 57 milyatrd dollarlıq idxal, Azərbaycan 27 milyard dollarlıq ixrac, 21 milyard dollarlıq idxal əməliyyatı həyata keçirib. Bu da o deməkdir ki, üç qardaş dövlətin illik ticarəti toplam 744 milyard dollardır. Bu da olduqca böyük rəqəmdir.

Ümumiyyətlə, beynəlxalq miqyasda ədaləti və hüququ dəstəkləyən ölkələrin bir-birinin yanında olması çox vacibdir. Bu gün dünyada əzilən, hüquqları pozulan ölkələrin sayı kifayət qədərdir. Azərbaycan, Türkiyə və Pakistanın qalib və güclü ölkələr olaraq ayaqda durmaları həmin ölkələrə də stimul verir, daha ədalətli düzənin qurulacağına ümidlərini artırır.

**Sevinc**